Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi

Azərbaycan Dillər Universiteti

# KEYFİYYƏT TƏMİNATI BƏLƏDÇİSİ

Bakı – 2024

**ADU-nun Elmi Şurasının 4 noyabr 2024-cü il tarixli Pr. №40 qərarı ilə təsdiq olunmuşdur**.


**Tərtib edənlər:**

**Keyfiyyətin təminatı və monitorinq şöbəsinin müdiri:**
dos. Fatma Nazim qızı Qurbanzadə

**Keyfiyyətin təminatı və monitorinq şöbəsinin mütəxəssisi:**
Yasəmən Sədi qızı Əliyeva

## Abreviatura

**ADU**- Azərbaycan Dillər Universiteti

**ATM**– Ali təhsil müəssisəsi

**DKT** – Daxili keyfiyyət təminatı

**GZİT** – Güclü, zəif, imkanlar və təhlükələr

**XKT** – Xarici keyfiyyət təminatı

**ISO** – International Organization for Standardization (az.Standardlaşdırma üzrə Beynəlxalq Təşkilat)

**KİS** – Keyfiyyət İdarəedilməsi Sistemi

**DKTK** – Daxili Keyfiyyət Təminatı Komissiyasi

**KT** – Keyfiyyət təminatı

**KTMŞ** – Keyfiyyət Təminatı və Monitorinq Şöbəsi

**KTS** – Keyfiyyət Təminatı Siyasəti

**PDCA** – Plan–Do–Check–Act/Adjust (planlaşdır - icra et - nəzarət et – tədbir gör/təkmilləşdir)

**TKTA** - Təhsildə Keyfiyyət Təminatı Agentliyi

# Mündəricat


Abreviatura ... 3

Giriş ... 5

2. Təhsildə keyfiyyət nədir? ... 5

3. Ali təhsildə keyfiyyət nədir? ... 6

4. Keyfiyyət təminati bələdçisinin mahiyyəti ... 6

5. “Keyfiyyət təminatı bələdçi” sinin məqsədi nədir? ... 7

6. Ali təhsildə keyfiyyət təminatı ... 7

6.1 Keyfiyyət təminatı ... 7

6.2.Keyfiyyət mexanizmi ... 8

7. Keyfiyyət təminati siyasəti ... 9

7.1. Keyfiyyət təminati siyasəti nədir? ... 9

7.2. Keyfiyyət Təminatı üzrə Struktur Vahidlərin Əsas Funksiyaları ... 10

7.3. Keyfiyyət idarəetmə sisteminin əsas prinsipləri ... 10

8. Daxili keyfiyyət təminatı (DKT) ... 11

9. Xarici keyfiyyət təminatı (XKT) ... 11

10. Keyfiyyət mədəniyyəti ... 12

11. Keyfiyyət mədəniyyətinin əsas prinsiplər: ... 12

12. Keyfiyyət Təminatında PDCA dövrü ... 13

13. SWOT analiz (GZİT analiz) ... 14

14. Keyfiyyət Terminləri Cədvəli ... 15

15. Məlumatlılıq və kommunikasiya ... 16

16. Performansin dəyərləndirilməsi və keyfiyyətin təhlili ... 17

17. Təkmilləşmə (ADU kontekstində) ... 17

Normativ sənədlər ... 18

# Giriş

Azərbaycanda ali təhsil sistemi son illərdə dinamik inkişaf mərhələsini yaşayır. 2005-ci ildən Bolonya prosesinə qoşulmaqla ölkəmizdə təhsil sisteminin Avropa standartlarına uyğunlaşdırılması istiqamətində mühüm addımlar atılmışdır. Bu müddətdə xüsusilə keyfiyyət təminatı sahəsində əsaslı dəyişikliklər həyata keçirilmiş, 2019-cu ildə Təhsildə Keyfiyyət Təminatı Agentliyi (TKTA) təsis edilmiş, 2020-ci ildə isə yeni Akkreditasiya Qaydaları qəbul olunmuşdur.

Bir çox ali təhsil müəssisələrində (ATM) effektiv daxili keyfiyyət təminatı mexanizmləri hələ də tam formalaşmamışdır. Azərbaycan Dillər Universiteti isə bu sahədə öz fəaliyyətini gücləndirmək məqsədilə keyfiyyət təminatını əsas inkişaf istiqamətlərindən biri kimi müəyyənləşdirmişdir. Universitetdə daxili keyfiyyət təminatı strukturunun təkmilləşdirilməsi, idarəetmədə şəffaflığın artırılması və tədris prosesinin Avropa təcrübəsinə uyğunlaşdırılması prioritet vəzifələr sırasındadır.

Azərbaycan Dillər Universiteti beynəlxalq təcrübədən faydalanaraq vahid keyfiyyət təminatı prinsiplərinin tətbiqini, müəllim və tələbə fəaliyyətinin sistemli monitorinqini, təlim nəticələrinin obyektiv qiymətləndirilməsini hədəfləyir. Bu istiqamətdə hazırlanan metodik tövsiyələr universitetin tədris prosesinin daha səmərəli və nəticəyönlü şəkildə təşkilinə xidmət edir.

## 2. Təhsildə keyfiyyət nədir?

Təhsildə keyfiyyət — təhsil prosesinin, təhsilalanların nailiyyətlərinin, müəllimlərin fəaliyyətinin və təhsil mühitinin müəyyən edilmiş standartlara, cəmiyyətin və əmək bazarının tələblərinə uyğunluğu deməkdir.

Başqa sözlə, təhsildə keyfiyyət yalnız biliklərin verilməsi ilə məhdudlaşmır, həm də tələbələrin əldə etdiyi kompetensiyaların, onların şəxsi inkişafının, peşəkar bacarıqlarının və cəmiyyətə faydalı vətəndaş kimi formalaşmasının təmin olunmasıdır.

Təhsildə keyfiyyət aşağıdakı meyarlarla qiymətləndirilə bilər:

- Təhsil proqramlarının məqsədəuyğunluğu və müasirliyə cavab verməsi;
- Tələbələrin öyrənmə nəticələrinin gözlənilən standartlara uyğunluğu;
- Müəllimlərin peşəkarlığı və pedaqoji fəaliyyəti;
- Təhsilalanların və digər maraqlı tərəflərin məmnunluğu;
- Təhsil müəssisəsinin idarəetmə və resurs potensialı;
- Milli və beynəlxalq standartlara uyğunluq.

Beləliklə, təhsildə keyfiyyət – davamlı inkişaf, şəffaflıq və ictimai etimad üzərində qurulmuş bir anlayışdır.

## 3. Ali təhsildə keyfiyyət nədir?

Ali təhsildə keyfiyyət ali təhsil müəssisələrinin tədris, tədqiqat və idarəetmə fəaliyyətlərinin milli və beynəlxalq standartlara, həmçinin cəmiyyətin, tələbələrin və əmək bazarının tələblərinə uyğunluğunu ifadə edir. Bu anlayış yalnız biliklərin verilməsini deyil, eyni zamanda tələbələrin peşəkar və şəxsi inkişafını, müasir bacarıqların formalaşdırılmasını, elmi-tədqiqat işlərinin keyfiyyətini, müəllimlərin peşəkarlığını, idarəetmədə şəffaflığı və beynəlxalq rəqabət qabiliyyətini də əhatə edir. Beləliklə, ali təhsildə keyfiyyət məzunların əmək bazarında rəqabətədavamlı, cəmiyyətin ehtiyaclarına cavab verən mütəxəssislər kimi yetişdirilməsi ilə ölçülür.

Keyfiyyət göstəriciləri bunlardır:

- Təhsil, dərs proqramları və tədris planları
- Tələbələr və tələbələrə dəstək sistemi
- Tədqiqat və müəllimlik fəaliyyəti
- Təhsil siyasəti (ciddi tədris mühiti)
- Maddi-texniki resurslar (binalar, otaqlar, laboratoriyalar, yeməkxana və s.)
- Kitabxana
- Ali təhsil müəssisəsinin inkişafı və fəaliyyət planları

Keyfiyyətin Təminatı Sistemi 2 aspekti əhatə edir:

- Akademik keyfiyyəti: tədris və təlimin keyfiyyəti, tədris planlarının keyfiyyəti.
- İnfrastrukturun keyfiyyəti: qurğular, avadanlıqlar.

## 4. Keyfiyyət təminati bələdçisinin mahiyyəti

Keyfiyyət təminatı bələdçisi ali təhsil müəssisələrində tədris, idarəetmə və qiymətləndirmə proseslərini vahid standartlar əsasında tənzimləyən sənəddir. Onun mahiyyəti təhsil keyfiyyətini yüksəltmək, şəffaflıq və hesabatlılığı təmin etmək, beynəlxalq standartlara uyğun inkişafı dəstəkləməkdir. Bələdçi ADU üçün həm praktiki yol xəritəsi, həm də davamlı inkişaf aləti rolunu oynayır.

## 5. "Keyfiyyət təminatı bələdçi" sinin məqsədi nədir?

"Keyfiyyət təminatı bələdçi"si adətən ali təhsil müəssisələrində daxili keyfiyyət təminatı sisteminin işlək və dayanıqlı şəkildə qurulması üçün nəzərdə tutulur. Onun məqsədləri ;

- Universitetdə tədris, elmi fəaliyyət və idarəetmənin keyfiyyət standartlarını müəyyənləşdirmək;
- Daxili keyfiyyət təminatı proseslərinin (planlaşdırma, həyata keçirmə, monitorinq, qiymətləndirmə və təkmilləşdirmə) vahid sistem əsasında təşkilini təmin etmək;
- Avropa və beynəlxalq təcrübəyə uyğun keyfiyyət prinsiplərini ali təhsil müəssisəsinə tətbiq etmək;
- Tədris prosesində şəffaflıq və hesabatlılığı artırmaq;
- Tələbələrin nailiyyətlərinin obyektiv qiymətləndirilməsini təmin etmək;
- Müəllim və inzibati heyətin fəaliyyətinin qiymətləndirilməsi üçün ümumi meyarlar formalaşdırmaq;
- Təhsil müəssisəsinin akkreditasiya və beynəlxalq reytinqlərdə uğurlu iştirakını dəstəkləmək;
- Universitetin davamlı inkişafına xidmət edəcək mexanizmləri sistemləşdirmək.

## 6. Ali təhsildə keyfiyyət təminatı

### 6.1 Keyfiyyət təminatı

Təhsildə keyfiyyətin qiymətləndirilməsi çox vaxt keyfiyyəti təmin etmək üçün hansı proseslərin və prosedurların mövcudluğuna, bundan başqa, planlaşdırılmış fəaliyyətlərin, o cümlədən proqramın yekun səriştə məqsədlərinə cavab verməsinin faktiki öyrənmə effektinin qiymətləndirilməsinə əsaslanır. Tədrisin keyfiyyətinin təmin edilməsi ADU üçün keyfiyyət təminatının əsas məqsədidir. Çünki dünyanın aparıcı universitetlərindən birinə çevrilməyi qarşıya məqsəd qoyan ADU-da yaradılan və formalaşan bütün strukturlar tədrisin keyfiyyətinin yüksəldilməsinə xidmət göstərmək məqsədi daşıyır. Elə buna görə də, bu proseslərin təmin edilməsi ADU-nun ümumi Keyfiyyət təminatı siyasətində (KTS) mühüm elementdir. Daxili keyfiyyət təminatı siyasəti anlayışının, yəni proses keyfiyyəti və öyrənmə keyfiyyətinin təmin olunması, qiymətləndirilməsi, dövrü monitorinqlərin aparılması və nəzarət məqsədilə, ADU-da "Keyfiyyətin Təminatı və Monitorinq" şöbəsi və "Daxili Keyfiyyət Təminatı" sistemi üzrə Komissiya fəaliyyət göstərir.

Keyfiyyətin Təminatı Sisteminin Azərbaycan Dillər Universitetində yaradılmasının məqsədi aşağıdakılardır:




- Tədrisin və tədqiqatın keyfiyyətinin yüksəldilməsi;
- Yeniliyin tətbiqi və təhsil üçün imkanların və mənbələrin araşdırılması;
- ATM-in beynəlxalq nüfuzunu dünya universitetləri səviyyəsinə qaldırması;
- .ATM-də idarəetmənin səviyyəsinin qaldırılması;
- Qiymətləndirmə sistemlərinin formalaşdırılması.

## 6.2.Keyfiyyət mexanizmi

Keyfiyyət təminatı mexanizmləri təhsilin, tədqiqatların və idarəetmənin keyfiyyətini təmin etmək üçün həyata keçirilən siyasət və proseslər toplusudur.

KEYFİYYƏT TƏMİNATI MEXANİZMLƏRİ

Tədris prosesinin keyfiyyətini artırmaq;

Akademik materialların yenilənməsi;

Tədqiqatların və elmi işlərin keyfiyyətinin artırılması;

Təşkilatın inkişafına dəstək olmaq;

Universitetdaxili əlaqəndirmə.

DAXİLİ KEYFİYYƏT TƏMİNATI

Daimi qiymətləndirmə;

Təhsilverənlərin və təhsilalanların məmnuniyyəti;

Akademik nailiyyətlərin monitorinqi;

Peşəkar inkişaf;

Maliyyə və idarəetmə nəzarəti.

XARİCİ KEYFİYYƏT TƏMİNATI

Akkreditasiya;

Monitorinq və audit;

Milli və beynəlxalq standartlar;

Benchmarking.

# 7. Keyfiyyət təminati siyasəti

## 7.1. Keyfiyyət təminati siyasəti nədir?

Azərbaycan Dillər Universitetinin (ADU) Keyfiyyət Təminatı Siyasəti (KTS) Azərbaycan Respublikasının təhsil siyasəti və cəmiyyətin inkişaf perspektivlərini nəzərə almaqla, ADU-nun Strateji İnkişaf Planının hədəflərinə nail olmağa və təhsilin keyfiyyətinin yüksəldilməsinə yönəlmişdir. Bu siyasəti həyata keçirməyin açarı ADU-nun Azərbaycanda, regionda və habelə, dünyada beynəlxalq rəqabətliliyinin artırılması məqsədilə, əmək bazarının tələblərinə uyğun yaradıcı, müasir düşüncəli və yüksək ixtisaslı kadr-mütəxəssis hazırlamaq, tələbəyönümlü təhsil, tədris və qiymətləndirmə sistemini həyata keçirmək, universitetdə elmi tədqiqat, təlim və tədris arasındakı əks əlaqəni təmin etmək, akademik və inzibati heyətin, o cümlədən, tələbələrin inkişafı və rifahını dəstəkləyən effektiv və səmərəli Keyfiyyət təminatı sistemi qurmaqdan başlayır.

ADU-nun Keyfiyyət Təminatı Siyasəti bütün universitetin iştirakına imkan verən daxili keyfiyyət təminatı prosesləri vasitəsilə tətbiq edilir. Universitet daxilində olan maraqlı tərəflər müvafiq struktur və proseslər vasitəsilə, eyni zamanda, təşkilatdan kənarda olan maraqlı tərəflər (məzunlar və s.) də bu prosesə cəlb edilməklə bu siyasəti inkişaf etdirməli və həyata keçirməlidir.

**Vizyonumuz**

ADU-nun Azərbaycan Respublikası ərazisində və beynəlxalq miqyasda rəqabətədayanıqlığını və dünyanın aparıcı universitetlərinin siyahısına daxil olmasını təmin etmək.

**Missiyamız**

Azərbaycan və digər ölkələrdən olan tələbələri müasir tədqiqatlara əsaslanaraq innovativ təlim-tədris texnologiyalarından istifadə etməklə peşəkar mütəxəssislər kimi formalaşdırmaq, həmçinin yüksək potensiala, tənqidi təfəkkür və analitik zəkaya, müstəqil şəkildə müxtəlif tədqiqatlar aparmaq bacarığına və ən əsası vətənpərvərlik hisslərinə, Azərbaycançılıq ideologiyasına malik işgüzar gənclər yetişdirmək.

## 7.2. Keyfiyyət Təminatı üzrə Struktur Vahidlərin Əsas Funksiyaları

ADU-da keyfiyyət təminatı üzrə əsas struktur vahidləri aşağıdakılardır:

1. **Keyfiyyətin təminatı və monitorinq şöbəsi (KTMŞ)**– Universitetdə keyfiyyətin təminatı siyasətini həyata keçirən əsas struktur olaraq, keyfiyyət fəaliyyətlərinin planlaşdırılması, icrası və monitorinqi, hesabatların hazırlanması və təkmilləşdirmə tədbirlərinin müəyyənləşdirilməsi ilə məşğuldur.
2. **Daxili keyfiyyət təminatı üzrə komissiya** – Universitet daxilində keyfiyyətin qiymətləndirilməsi, daxili audit və inkişaf istiqamətlərinin müəyyən edilməsi funksiyalarını icra edir.
3. **İmtahan Qərargahı** – Universitetdə imtahanların keçirilməsinin şəffaflığını təmin edir, apelyasiya və imtahan prosesinin gedişatında baş verə biləcək hər hansı bir problem ilə bağlı məsələlərə nəzarət edir.
4. **Fakültələrdə və kafedralarda keyfiyyət təminatı üzrə komissiyyalar** – Fakültə və kafedra səviyyəsində keyfiyyətin idarə olunmasını təşkil edir və müxtəlif modellərlə fəaliyyət göstərir.

## 7.3. Keyfiyyət idarəetmə sisteminin əsas prinsipləri

ADU-da KİS aşağıdakı əsas **prinsiplərə** əsaslanır:

**Tələbə-mərkəzli yanaşma:** Universitetin əsas benefisiarları kimi tələbələrin ehtiyac və gözləntilərinə uyğun yüksək keyfiyyətli təhsil və xidmətlər təqdim etmək;

**Rəhbərliyin aparıcı rolu:** Universitet rəhbərliyi keyfiyyət idarəetmə proseslərinə strateji səviyyədə dəstək göstərir və sistemin effektivliyini təmin edir;

**Bütün əməkdaşların iştirakı:** KİS-in tətbiqi və inkişafı universitetin bütün akademik və inzibati heyətinin aktiv iştirakını tələb edir;

**Proses yanaşması:** Universitetin fəaliyyətini qarşılıqlı əlaqəli və təsir edən proseslər toplusu kimi idarə etmək;

**Proaktiv keyfiyyət idarəetməsi:** Uyğunsuzluqların yalnız aradan qaldırılması deyil, onların yaranmasının qarşısının alınmasına xüsusi diqqət yetirmək;

**Davamlı təkmilləşmə:** Universitetin KİS-i müntəzəm olaraq qiymətləndirilir və beynəlxalq standartlara uyğun təkmilləşdirilir;

**Faktlara əsaslanan qərarvermə:** Bütün qərarlar dəqiq və obyektiv məlumatlara əsaslanaraq qəbul edilir.

## 8. Daxili keyfiyyət təminatı (DKT)

Daxili keyfiyyət təminatı ali təhsil müəssisəsinin daxilində həyata keçirilən fəaliyyətlər, prosedurlar və mexanizmlər sistemidir. Daxili keyfiyyət təminatı (DKT) ali təhsil müəssisələrinin fəaliyyətinin dövlət təhsil standartlarına uyğunluğunu təmin etməyə və səmərəli təhsil mühiti yaratmağa xidmət edir. DKT, müəllim, tələbə və tədris mühiti arasındakı qarşılıqlı əlaqələrin nəticəsidir. Onun əsas məqsədi tədris prosesinin keyfiyyətini yüksəltmək, idarəetmədə şəffaflıq və hesabatlılığı təmin etmək, tələbələrin nailiyyətlərini obyektiv şəkildə qiymətləndirməkdir. Bu sistem həmçinin müəllimlərin peşəkar inkişafını dəstəkləyir, təhsilalanların və təhsilverənlərin məmnuniyyətini nəzərə alır və universitetin maliyyə, idarəetmə və resurslardan səmərəli istifadəsini təmin edir. Daxili keyfiyyət təminatı ali təhsil müəssisəsinin özünüqiymətləndirmə və davamlı inkişaf vasitəsi olmaqla yanaşı, xarici keyfiyyət təminatına hazırlıq üçün də əsas baza rolunu oynayır.

Azərbaycan Dillər Universiteti (ADU) daxili keyfiyyət təminatı (DKT) sisteminin inkişafınaxüsusi önəm verir. Universitetin əsas məqsədi daxili idarəetmənin səmərəliliyini artırmaq, təhsil mühitini müasir standartlara uyğunlaşdırmaq və davamlı inkişafı təmin etməkdir.

ADU dövlət təhsil standartlarına uyğun olaraq fəaliyyətini qiymətləndirmək üçün daxili monitorinq sistemləri tətbiq edir. Bunun üçün universitet daxilində "Daxili Keyfiyyət Təminatı üzrə Komissiya" yaradılmışdır. Tələbə və müəllim məmnuniyyətini öyrənmək üçün sorğular keçirir, fakültələr üzrə yerləşdililən "rəy və təklif" qutularına daxil olan rəy və təkliflərə əsasında nəticələr çıxarılaraq təhlillər aparır.

## 9. Xarici keyfiyyət təminatı (XKT)

Xarici keyfiyyət təminatı (XKT) ali təhsil müəssisələrinin fəaliyyətinin müstəqil qurumlar tərəfindən qiymətləndirilməsi və monitorinqi prosesidir. Onun əsas məqsədi universitetlərin tədris, idarəetmə və tədqiqat fəaliyyətinin milli və beynəlxalq standartlara uyğunluğunu yoxlamaq, təhsilin keyfiyyətini artırmaq və ictimai etimadı gücləndirməkdir.

XKT adətən akkreditasiya, monitorinq, audit və benchmarking vasitəsilə həyata keçirilir. Bu proses nəticəsində ali təhsil müəssisəsinin güclü və zəif tərəfləri müəyyən olunur, təkmilləşdirmə üçün tövsiyələr verilir. Beləliklə, xarici keyfiyyət təminatı həm universitetlərin şəffaf fəaliyyətinə nəzarət edir, həm də onların beynəlxalq rəqabət qabiliyyətini yüksəltməyə xidmət edir.

## 10. Keyfiyyət mədəniyyəti

ADU-nun Keyfiyyət Təminatı Siyasətinin uğurla həyata keçirilməsində, təhsil proqramlarına və tədris proqramlarına tətbiq olunan keyfiyyət standartlarına cavab verməsində ADU rəhbərliyi, akademik və inzibati heyət, habelə, tələbələr məsuliyyət daşıyır. İşçi heyətin ayrı-ayrı üzvlərinə təyin edilmiş xüsusi öhdəliklər onların vəzifə təlimatlarında təsvir edilmişdir. Tələbələrə gəldikdə isə, tədrisin məzmunu və təşkili tənqidi təfəkkürə həvəsləndirmək, tələbəyönümlü təhsil prosesində onların fəal iştirakına şərait yaratmağa, onlarda özünütəhlil və müstəqil düşüncə qabiliyyəti formalaşdırmağa, sorğularda iştirakla qiymətləndirilməsi və təhsil siyasətinə cəlb olunma isə onları keyfiyyətin təminatında fəal rol oynamağa həvəsləndirməyə xidmət edir.

Bu fərdi məsuliyyətin vurğulanması, universitetin elmi tədqiqat, beynəlmiləlləşmə, tədris və təhsil proqramlarının hər zaman müəyyən edilmiş standartlara cavab verməsi üçün hər bir şəxsin, özünəməxsus şəkildə, müsbət töhfə verməyə borclu olduğuna dair gözləntiləri aydınlaşdırır.

## 11. Keyfiyyət mədəniyyətinin əsas prinsiplər:

1. **Şəffaflıq:** Keyfiyyət təminatının bütün mərhələlərində məlumat əldə etmək, idarəetmə proseslərini bütün uyğun tərəflərin maraqlarını nəzərə alaraq qurmaq
2. **Davamlı İnkişaf və Təkmilləşdirmə**: Təhsil müəssisələrinin bütün fəaliyyətlərində daimi yenilənmə və təkmilləşdirməyə fokuslanması.
3. **Liderlik:** Təhsil keyfiyyətinə nail olmaq üçün rəhbərliyin müəyyən bir düşüncə tərzi formalaşdırması və bu prosesə rəhbərlik etməsi.
4. **Əməkdaşlıq:** Təhsilin bütün iştirakçılarının (tələbələr, müəllimlər, inzibatçı personal) birgə fəaliyyət göstərməsi və bir-birini dəstəkləməsi.
5. **Müştəri Məmnuniyyəti**: Müəssisənin xidmətlərindən istifadə edən (tələbələr, valideynlər) tərəflərin məmnuniyyətini təmin etmək.
6. **Tam İştirak**: Müəssisənin bütün üzvlərinin (şəxsi heyət, tələbələr) keyfiyyətə nail olmaq prosesinə tam qoşulması.

7. **Mədəni və Struktural Uyğunluq**: Təhsil müəssisəsinin daxili mədəniyyətinin və strukturunun keyfiyyət məqsədlərinə uyğunlaşdırılması.

## 12. Keyfiyyət Təminatında PDCA dövrü

PDCA dövrü (ing. Plan-Do-Check-Act) — idarəetmə və keyfiyyət təminatı sahəsində istifadə olunan davamlı inkişaf modelidir. Onun mahiyyəti hər hansı bir prosesin təkmilləşdirilməsini mərhələli şəkildə həyata keçirməkdir.

Mərhələləri:

1. Plan (Planlaşdır) – Problemi və ya məqsədi müəyyənləşdirmək, onu həll etmək üçün plan hazırlamaq.

2. Do (İcra et)– Hazırlanmış planı həyata keçirmək, yeni proses və ya metodları sınamaq.

3. Check (Yoxla)– Görülən işlərin nəticəsini qiymətləndirmək, planla müqayisə aparmaq, çatışmazlıqları müəyyənləşdirmək.

4. Act (Təkmilləşdir) – Əldə edilən nəticələrə əsaslanaraq prosesi standartlaşdırmaq və ya təkmilləşdirmək, daha yaxşı nəticələr üçün yeni plan hazırlamaq.



# 13. SWOT analiz (GZİT analiz)

## S Güclü Tərəflər

- ADU-nun cəmiyyətdə nüfuzu
- Yerli və beynəlxalq əlaqələrin şaxələnməsi
- Akkreditasiya olunmuş proqramlar
- Yüksək potensiala malik professor- müəllim heyəti
- Humanitar elmlərin unikal ixtisaslaşması
- Keyfiyyətli təhsilin tətbiqi
- Tədris binalarının Bakının əlverişli ərazilərində yerləşməsi və təmirli olması
- Uğurlu və Fəxri məzunlar
- Beynəlxalq təhsil proqramları
- Dil yönümlü ixtisaslar
- Xarici dilin sıx əməkdaşlığa imkan verməsi

## W Zəif Tərəflər

- Universitetə yeni qəbul olunmuş tələbələr üçün hazırlıq ilinin olmaması
- Maddi-Texniki bazanın məhdud olması
- Dəyişikliklərin tətbiq olunmasında məhdudiyyətlər və maneələr
- Tələbələrin geniş təqaüd imkanlarının və yataqxana təminatının olmaması
- Laboratoriya və mərkəzlər ilə kafedralar arasında koordinasiyanın güclü olmaması
- Təhsil sektorunda konsaltinq xidmətlərinin əlçatan olmaması
- Nüfuzlu jurnallarda çap edilən elmi əsərlərin sayının yetərli olmaması
- Qazanılan qrant layihələrinin məhdud sayda olması;
- Tələbə təşkilatlarının fəaliyyətlərinin lazımi səviyyədə olmaması;
- Məzunlarla əlaqələrin yetərli səviyyədə qurulmaması;

## O İmkanlar

- Sosial tendensiyalar nəticəsində Ali təhsilin zəruriliyinin dəyərləndirilməsi
- Ölkəmizdə inkişaf edən beynəlxalq əlaqələrin ADU-da çoxşaxəli beynəlxalq əməkdaşlığa yol açması
- İxtisasartırma/ əlavə təhsil tendensiyalarının ömürboyu təhsil xidmətlərinə təsiri
- Texnoloji tərəqqinin yüksək keyfiyyətli tədris üçün əlverişli imkanlar yaratması
- Xarici dil mütəxəssislərinə tələbatın artması
- Ölkədə yüksək potensiala malik kadrlara tələbin artması
- Xaricdə təhsil alan məzunların, yerli təhsil müəssisələrində işə cəlb olunması və ölkəmizdə kadr potensialının zənginləşməsinə yol açması
- Universitetdə yeni xidmətlərin təklifi və tətbiqi nəticəsində gəlirlərin/maliyyə axınlarının dayanıqlığının möhkəmləndirilməsi
- Təhsilin idarəedilməsində beynəlxalq təcrübə və təlimlərin daha əlçatan olması

## T Təhdidlər

- Yeni kadrların cəlb olunması üçün əmək bazarında rəqabətin artması
- Büdcənin əsas hissəsinin təhsil haqlarından formalaşması
- İctimai şüurda "diplom xətrinə oxumaq" təfəkkürünün müəyyən səviyyədə davam etməsi
- Post-pandemiya dövründə qlobal iqtisadi qeyri-müəyyənlik
- Xaricdə təhsil və distant təhsil modelinin daha əlçatan olması
- Əmək bazarının tələblərinin sürətlə dəyişməsi
- Təhsil proqramlarının unifikasiyası
- Miqrasiyanın qarşıya qoyduğu məhdudiyyətləri

# 14. Keyfiyyət Terminləri Cədvəli

| Termin | Təsviri |
|---|---|
| **Keyfiyyət** | Təhsil müəssisəsinin akademik, idarəetmə və xidmət sahələrində müəyyən olunmuş standartlara və gözləntilərə uyğunluq səviyyəsi |
| **Keyfiyyətə Nəzarət** | Məhsulun, xidmətin və ya prosesin müəyyən olunmuş standartlara uyğun olmasını təmin etmək üçün həyata keçirilən yoxlama və nəzarət prosesi |
| **Keyfiyyət Təminatı** | Müəssisə və ya təşkilat daxilində keyfiyyətin planlaşdırılması, idarə olunması və davamlı inkişafını təmin edən sistematik yanaşmalar və prosedurlar toplusu |
| **Keyfiyyət Mədəniyyəti** | Bir müəssisə daxilində mükəmməllik və davamlı inkişafın önəmini vurğulayan ortaq dəyərlər, münasibətlər və təcrübələr toplusu |
| **Daxili Qiymətləndirmə** | Təhsil müəssisəsinin öz fəaliyyətlərini qiymətləndirmək və inkişaf etdirmək üçün həyata keçirdiyi sistemli özünütəhlil prosesi |
| **Xarici Qiymətləndirmə** | Müstəqil ekspertlərin və ya təşkilatların təhsil müəssisələrinin fəaliyyətlərini və keyfiyyət səviyyəsini qiymətləndirməsi prosesi |
| **Akkreditasiya** | Təhsil proqramlarının və təşkilatların keyfiyyətinin müstəqil ekspertlər tərəfindən qiymətləndirilməsi və tanınması prosesi |
| **Daxili Keyfiyyət Təminatı (DKT)** | Təhsil müəssisəsinin fəaliyyətinin dövlət təhsil standartlarına uyğunluğunu, müasir tələblərə cavab verən tədris mühitinin yaradılmasını və fəaliyyətin özünütəhlil əsasında davamlı inkişafını təmin edən daxili |
| **Keyfiyyətin Təmin Olunması** | Milli və ya institusional səviyyədə qəbul olunmuş proses və ya proseslər toplusudur; keyfiyyətin qorunması və artırılmasına yönəlmiş fəaliyyətlərdən ibarətdir |
| **Keyfiyyət Standartları** | Təhsil müəssisələrinin fəaliyyətini istiqamətləndirən, keyfiyyət göstəricilərini müəyyən edən və tədrisin keyfiyyətini yüksəltməyə xidmət edən normativ tələblər və göstəricilər |
| **Monitorinq və Qiymətləndirmə** | Təhsil prosesinin və keyfiyyət təminatı mexanizmlərinin davamlı şəkildə izlənilməsi, təhlil edilməsi və inkişaf istiqamətlərinin müəyyən olunması prosesi |
| **Özünütəhlil** | Təhsil müəssisəsinin və ya fakültənin öz fəaliyyətini obyektiv dəyərləndirərək keyfiyyətini artırmaq üçün istifadə etdiyi metod |
| **Tələbə Məmnuniyyəti** | Təhsil müəssisəsinin tələbələrə təqdim etdiyi tədris və xidmətlərin onların gözləntilərinə və ehtiyaclarına nə dərəcədə uyğun olmasını ölçən indicator |
| **Keyfiyyət Göstəriciləri** | Təhsil müəssisəsinin fəaliyyətinin effektivliyini ölçmək üçün istifadə olunan əsas göstəricilər |

| | |
|---|---|
| **Müqayisəli Təhlil (Comparative Analysis)** | Bir universitetin və ya proqramın digər oxşar müəssisələrlə müqayisə edilməsi və inkişaf üçün yeni imkanların müəyyən olunması prosesi |

## 15. Məlumatlılıq və kommunikasiya

Azərbaycan Dillər Universitetində **bütün akademik və inzibati heyət** keyfiyyət siyasəti, strateji hədəflər və keyfiyyət idarəetmə prosesləri barədə mütəmadi olaraq məlumatlandırılır. Universitetdə **daxili informasiya mübadiləsi** müxtəlif struktur bölmələri arasında **Keyfiyyət İdarəetmə Sistemi (KİS)** çərçivəsində **effektivliyi təmin etmək məqsədilə** təşkil olunmuşdur.

Bu sistem **hər bir əməkdaşın proseslərdə aktiv iştirakını təmin edir,** onların fəaliyyətini təkmilləşdirir və **universitetin keyfiyyət hədəflərinə nail olunmasına töhfə verir.**

ADU-da daxili məlumat axını aşağıdakı iki istiqamətdə həyata keçirilir:

**"Yuxarıdan aşağıya doğru"** – Rektor, prorektorlar və digər ali rəhbərlikdən struktur bölmə rəhbərləri vasitəsilə bütün əməkdaşlara məlumat ötürülməsi;

**"Aşağıdan yuxarıya doğru"** – İşçilərdən şöbə və fakültə rəhbərləri vasitəsilə universitet rəhbərliyinə geribildirim verilməsi.

***Əlaqə (Kommunikasiya)***

ADU-da **Keyfiyyət İdarəetmə Sistemi (KİS)** çərçivəsində keyfiyyətin təmin edilməsi üçün **daxili və xarici kommunikasiya fasiləsiz və tam şəkildə təmin olunur.** Universitetdə **kommunikasiya prosesləri** həm daxili struktur bölmələri arasında, həm də universitetin xarici tərəfdaşları ilə **açıq və şəffaf informasiya mübadiləsi** əsasında qurulmuşdur.

Bu məqsədlə aşağıdakı **kommunikasiya vasitələrindən istifadə olunur**:

**Universitetdaxili və xarici yazışmalar** – rəsmi sənədlər, protokollar və məktublar;

**Elektron poçt sistemi** – operativ məlumat ötürülməsi və işçi yazışmalar;

**Telefon rabitəsi** – təcili və operativ əlaqə üçün;

**Toplantılar və iclaslar** – rəhbərlik və struktur bölmələri arasında mütəmadi müzakirələrin təşkili;

**Üzbəüz görüşlər** – keyfiyyət məsələləri üzrə işçi heyət, tələbələr və rəhbərlik arasında müzakirələr;

**Daxili təlimlər və seminarlar** – KİS çərçivəsində əməkdaşların bilik və bacarıqlarının artırılması məqsədilə;

**Sosial şəbəkələr və rəsmi veb-sayt** – universitetin keyfiyyət siyasəti və digər mühüm məlumatların ictimaiyyətə çatdırılması üçün;

**Tələbə və işçi sorğuları** – universitetin xidmət və fəaliyyətinin keyfiyyətini qiymətləndirmək üçün.

## 16. Performansin dəyərləndirilməsi və keyfiyyətin təhlili

**Monitorinq, ölçmə, analiz və qiymətləndirmə** ADU-da Keyfiyyət İdarəetmə Sistemi (KİS) çərçivəsində akademik və inzibati fəaliyyətlərin qiymətləndirilməsi üçün mütəmadi monitorinq, analiz və dəyərləndirmə aparılır. Qiymətləndirmə nəticələri əsasında inkişaf və düzəldici tədbirlər həyata keçirilir.

- **Maraqlı tərəf məmnuniyyətinin ölçülməsi**: Müəllim və tələbələrin rəy və gözləntiləri toplanaraq təhlil edilir.
- **Keyfiyyət proseslərinin izlənməsi**: Komissiyalar üzrə fəaliyyət planlaşdırılmış hədəflərlə müqayisə edilir.
- **Daxili yoxlamalar** Universitetdə daxili auditlər il ərzində ən azı bir dəfə olmaqla planlaşdırılır.

**Əsas məqsəd:**

- Keyfiyyət standartlarına uyğunluğun yoxlanılması;
- Uyğunsuzluqların müəyyən edilməsi və aradan qaldırılması;
- Akademik və inzibati personalın keyfiyyət proseslərinə uyğun fəaliyyət göstərməsinin təmin edilməsi.

Yoxlama nəticələri rəhbərliyə təqdim edilir və zəruri düzəldici tədbirlər həyata keçirilir.

## 17. Təkmilləşmə (ADU kontekstində)

ADU-da təhsil və idarəetmə proseslərinin keyfiyyətini artırmaq üçün sistematik təkmilləşmə yanaşması tətbiq olunur. Akademik və inzibati fəaliyyətlərdə arzuolunmayan halların öncədən müəyyən edilməsi və qarşısının alınması məqsədilə qabaqlayıcı tədbirlər görülür. Təkmilləşmə prosesi aşağıdakı elementlərə əsaslanır:

- **Strateji planlama və SWOT analizi**
- **Akademik və inzibati sorğuların nəticələrinin təhlili**
- **İdarə Heyətinin qərarlarının tətbiqi**
- **İSO və digər beynəlxalq keyfiyyət standartlarının tələblərinin icrası**

***Uyğunsuzluqların idarə edilməsi və düzəldici fəaliyyətlər***
ADU-da uyğunsuzluqların müəyyən edilməsi və aradan qaldırılması üçün aşağıdakı mexanizmlər tətbiq olunur:

- **Tələbə və müəllim rəy sorğuları**
- **Daxili və xarici audit hesabatları**
- **İdarəetmə və akademik fəaliyyətlə bağlı şikayət və təkliflərin qeydiyyatı**
- **Keyfiyyətin təminatı şöbəsi tərəfindən müntəzəm monitorinqlər**

## Normativ sənədlər

Təhsil Haqqında Azərbaycan Respublikasının Qanunu:

https://e-qanun.az/framework/18343

Akkreditasiya və Sertifikatlaşdırma Qanunvericiliyi:

https://e-qanun.az/framework/28108

Ali Təhsilin Dövlət Standartları:

https://e-qanun.az/framework/19531

Ali təhsil müəssisəsinin institusional akkreditasiyası üzrə qiymətləndirmə meyarları

https://e-qanun.az/framework/52566

Azərbaycan Dillər Universitetinin Nizamnaməsi

https://adu.edu.az/az/adu-haqqinda/NZAMNAM/

Azərbaycan Dillər Universitetinin Strateji İnkişaf Planı

https://adu.edu.az/az/adu-haqqinda/ASP/

Keyfiyyətin Təminatı Siyasəti və və keyfiyyət mədəniyyəti

https://adu.edu.az/az/adu-haqqinda/Keyfiyytinsiyastivmdniyyti/

Keyfiyyət təminatı və monitorinq şöbəsinin əsasnaməsi:

https://adu.edu.az/az/adu-haqqinda/DEPARTMENTS/10.html